# "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı"

**Dünən Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" mövzusunda respublika elmi konfransı keçirilib.**

Əvvəlcə tədbir iştirakçılarına görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dönəmlərini əks etdirən sərgi nümayiş etdirilib.

Tədbiri muzeyin baş direktoru, akademik Rafael Hüseynov açaraq dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə dövlət və xalq qarşısında tarixi xidmətlərindən, ölkəmizin tərəqqisi, rifahi naminə gördüyü misilsiz işlərdən söz açıb. O, Azərbaycan bədii ədəbi irsinin mahir bilicisi olmuş Heydər Əliyevin milli ədəbiyyata, onun ölməz yaradıcılarına olan xüsusi maraq və sevgisindən bəhs edib.





"Ulu öndər ölkəmizə rəhbərlik etməyə başladığı ilk dövrlərdə Azərbaycan dilinin, ədəbiyyatının, mənəviyyatının keşiyində dayanıb", – deyən akademik Rafael Hüseynov doğma dilimizin hərtərəfli inkişaf etdirilməsində, dövlət dili statusu qazanmasında ümummilli lider Heydər Əliyevin xidmətlərinin danılmaz olduğunu vurğulayıb. O, ulu öndərin təşəbbüsü ilə 27 aprel 1978-ci il tarixində Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbit olunduğunu diqqətə çatdırıb.

Baş direktor qeyd edib ki, görkəmli dövlət xadimi Heydər Əliyevin taleyində və siyasi fəaliyyətində ədəbiyyat faktorunun yeri, rolu və imkanları çox geniş anlayış olub. Alimin sözlərinə görə, ulu öndər ədəbiyyatın klassik nümunələrinə yaxından bələd idi, ədəbiyyatı qəlbən sevirdi və onun ədəbiyyatın müasir yaradıcılarına səmimi münasibəti vardı.

Rafael Hüseynov məhz ulu öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyinin UNESCO-nun tədbirləri siyahısına daxil edildiyini və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunduğunu diqqətə çatdırıb.

Akademik Rafael Hüseynov qeyd edib ki, ulu öndərin yaradıcılığını xüsusi qiymətləndirdiyi və xatirəsinin əbədiləşdirilməsi üçün qətiyyətli tədbirlər gördüyü Azərbaycanın görkəmli sənətkarlarından biri də böyük şair və dramaturq Hüseyn Caviddir.

Hüseyn Cavidin nəşinin ulu öndərin təşəbbüsü nəticəsində uzaq Sibirdən Azərbaycana – öz doğma Vətəninə gətirildiyini vurğulayan məruzəçi onun xatirəsinin əbədiləşdirilməsi istiqamətində də atılan ilk və qəti addımların məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə təsadüf etdiyini söyləyib.

Qeyd olunub ki, dahi lider müstəqil Azərbaycana rəhbərliyi dövründə "Kitabi-Dədə Qorqud"a da böyük dəyər verib, onun təbliğini diqqət mərkəzində saxlayıb. Ümummilli liderin 1997-ci il aprelin 20-də imzaladığı sərəncam əsasında "Kitabi-Dədə Qorqud"un 1300 illiyinin geniş şəkildə qeyd edilməsi üçün hərtərəfli tədbirlər həyata keçirilib.

Daha sonra konfrans öz işini bölmələr üzrə davam etdirib.

"Heydər Əliyev və klassik Azərbaycan ədəbiyyatı", "Heydər Əliyev və müasir Azərbaycan ədəbiyyatı", "Azərbaycan ədib və mədəniyyət xadimlərinin xatirəsinin əbədiləşdirilməsində Heydər Əliyevin xidmətləri", "Heydər Əliyev və "Kitabi-Dədə Qorqud" abidəsinin öyrənilməsində yeni mərhələ", "Heydər Əliyevin dövlət siyasətində mədəni irs və klassiklərimizin Azərbaycan böyüklüyünün rəmzi kimi istifadəsi" bölmələrini əhatə edən tədbirdə müxtəlif mövzularda məruzələr dinlənilib.

Sonda konfransda məruzə ilə çıxış edənlərə sertifikatlar təqdim olundu.

***Qabil YUSİFOĞLU,***
***"Xalq qəzeti"***